

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 92 (23.254)

17 may 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edib. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu bildirərək Çex Respublikası Hökuməti üzvlərinin də Azərbaycana uğurlu səfər etdiklərini deyib və iqtisadi, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirib.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, Çexiya investorları tərəfindən Azərbaycana böyük maraq göstərildiyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında münasibətlərin həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində uğurla inkişaf etdiyi vurğulanıb və eyni zamanda hökumətlərarası birgə komissiyanın işinin fəallaşdırılmasının vacibliyi qeyd olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimində iştirak edib.



## Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2019-cu ildə Duzdağ Fizioterapiya Mərkəzinin yaradılmasının 40 illiyi tamam olur.

Tarixi eradan əvvəl V-III minilliyə aid olan Naxçıvan Duzdağı 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir. Tarixən Naxçıvan Duzdağının və duzunun əhəmiyyəti alimlərin elmi-tədqiqat obyektinə çevrilmiş, geniş arxeoloji tədqiqatlar aparılmış, duzdan səmərəli istifadənin yolları müəyyənləşdirilmişdir. Naxçıvan duzundan məişətdə, sənayedə, təbiətdə və tibbdə geniş istifadə olunur.

Qədim Naxçıvan Duzdağının xüsusi müalicəvi əhəmiyyəti və duz tərkibinin zənginliyi nəzərə alınaraq 1979-cu ildə duz mədəni bazasında Naxçıvan Fizioterapiya Xəstəxanası yaradılmış, 2008-ci ildən isə Duzdağ Fizioterapiya Mərkəzi kimi fəaliyyətini davam etdirən bu səhiyyə müəssisəsində bronxial-astma və ağciyər xəstələri müalicə olunur.

Təbii şəfa ocağı olan Duzdağ Fizioterapiya Mərkəzi səhiyyə turizmi üçün də perspektivlidir. Müalicə üçün Mərkəzə hər il ölkəmizdən və xaricdən 4000-ə yaxın müraciət olur.

Duzdağ Fizioterapiya Mərkəzinin tibbi əhəmiyyətini və muxtar respublikada səhiyyə turizminin inkişafındakı rolunu nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyi geniş qeyd edilsin.
2. "Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 may 2019-cu il*

## Müşavirə keçirilib



***Kəngərli Rayon İcra Hakimiyyətində torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunan müşavirə keçirilib.***

Tədbiri Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq rayonda bu sahədə görülən işlər barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə "Muxtar respublikada torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda çıxış edib.

Çıxışda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanının əhəmiyyətindən danışılıb. Qeyd olunub ki, fərmana əsasən 2020-ci ilədək muxtar respublikada dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sistemi yaradılacaq və rəqəmsal kadastr xəritəsi tərtib ediləcəkdir.

Vurğulanıb ki, Torpaqların elektron kadastr uçotu informasiya sistemi vasitəsilə tənzimlənməsi icarəyə götürülən, lakin istifadə olunmayan torpaqların aşkarlanmasına və istifadəyə verilməsinə şərait yaradacaq. Bu sahədəki mövcud çatışmazlıqlar aradan qaldırılacaq. Dövlət reyestrində üzərində hüquqlar qeydiyyata alınmış torpaq sahələrinə dair hüquqi və texniki sənədlərdə düzəlişlər edilməsi zərurəti barədə hüquq sahiblərinə bildiriş təqdim olunacaq. Həmçinin qanunvericiliyin tələbinə uyğun olaraq hüquq sahibi sayılan mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin ərizəsi əsasında daşınmaz əmlakın dövlət reyestrində düzəlişlər edilməsi və həmin düzəlişlərə uyğun yeni sənədlərin verilməsi də təmin ediləcək.

Diqqətə çatdırılıb ki, 2017-ci il 23 fevral tarixdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılmasının və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsinin 2020-ci ilədək mərhələlərlə təmin olunmasına dair tədbirlər planı təsdiq edilib.

Qeyd olunub ki, ətraf yaşayış məntəqələri ilə birlikdə Naxçıvan şəhərində, Şərur, Babək, Culfa və Ordubad rayonlarında həyətyanı torpaq sahələrinin elektron taxometr vasitəsilə planaalma işləri başa çatdırılıb. Hazırda ölçü işləri başa çatmış yaşayış məntəqələrinin ərazilərində mülkiyyət növündən və təyinatından asılı olmayaraq, bütün torpaq sahələrinin ölçüləri, sərhədləri, konfiqurasiyası dəqiqləşdirilir, torpaqların növləri üzrə kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişikliklər müəyyən edilir.

Bildirilib ki, Kəngərli rayonunda aparılacaq planaalma işləri nəticəsində 2 min 795 daşınmaz əmlak obyektinin plana alınması nəzərdə tutulur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin şöbə müdiri İntizar Əliyev, Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun direktoru Cəfər Əliyev məruzə ətrafında çıxış ediblər.

**Babək İSMAYILOV**

## "İdeyadan başlanğıca" devizi altında tədbirlər davam edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsi əməkdaşlarının Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşü keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, bu sərəncam bilikli və təcrübəli gənc kadrların hazırlanmasında böyük imkanlar yaradacaq. Vurğulanıb ki, layihələrin dəyərləndirilməsi üçün ekspert qrupu və ictimai əsaslarla fəaliyyət göstərən mərkəzlər yaradılır və tələbələr tərəfindən təqdim olunan layihələrin qəbulu və təqdimatları bu mərkəzlər tərəfindən həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov tələbələrin hamiliyə götürülməsi və startap layihəsinin əhəmiyyətindən danışıb. Bildirilib ki, bu cür yeniliklər yetişən gənc nəslin gələcək iş həyatları üçün önəmli bir körpü yaradır.



Komitənin şöbə müdiri, universitetin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi kafedrasının müəllimi Səttar Nəsirov çıxış edərək sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə ardıcıl tədbirlər keçirildiyini vurğulayıb. Qeyd olunub ki, sözügedən layihələrdə gənclərin intellektual və yaradıcı potensialının, ideyalarının reallaşdırılması üçün dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, onlara daha əlverişli şəraitin yaradılması, fəallığının artırılması istiqamətində işlər davam etdiriləcəkdir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, tələbələrin sualları cavablandırılıb.

**Badəm MƏMMƏDOVA**

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri ilə görüş keçirilib.*

Tədbirdə xidmətin rəisi Vəli Novruzov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kollecində Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələr Dövlət Baytarlıq Xidmətinə hamiliyə verilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il aprelin 3-də imzaladığı müvafiq Sərəncamı muxtar respublikamızda gənclərin startap layihələrində fəal iştirakına və bu sahədə dövlət dəstəyinin gücləndirilməsinə imkan yaradıb.

Sonra kollecin direktoru Asəf Ruşanov çıxış edərək deyib ki, muxtar respublikamızda tələbələrin iştirakı ilə "İdeyadan başlanğıca" devizi altında təşkil edilən "Startap turları" gənclərin yeni ideyalar ətrafında birləşməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti Xüsusi təhlükəli xəstəliklərə nəzarət şöbəsinin müdiri Elnur Əliyevin və kollecin müəllimi Aysel Seyidovanın çıxışları dinlənilib.

Görüş çərçivəsində tələbələr Dövlət Baytarlıq Xidmətinin fəaliyyəti ilə tanış olublar.

**Pərviz HACILI**

*17 may Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür*

# Muxtar respublikada sağlam informasiya cəmiyyəti qurulub



*Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2006-cı il 26 mart tarixli qətnaməsinə əsasən hər il mayın 17-si "Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü" kimi qeyd olunur.*

Azərbaycanda informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlərindəndir. Ümummilli lider Heydər Əliyev 2003-cü ildə respublikamızda informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nı təsdiq etmişdir. Milli Strategiyanın qəbulundan sonra ölkəmizdə bu sahədə kompleks tədbirlər həyata keçirilmişdir.

İnformasiya texnologiyalarının inkişafına mühüm əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu sahədə məqsədyönlü tədbirlər görülür. Son illər qəbul edilən dövlət proqramları və həyata keçirilən zəruri islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmış, Azərbaycanın dünya kosmik məkanına inteqrasiyası təmin edilmişdir.

İnformasiya texnologiyalarının inkişafı sahəsində müəyyənləşdirilən dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. İnformasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçt-maliyyə xidmətlərinin, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən yaradılmış "Elektron hökumət" portalının imkanları ildən-ilə inkişaf etdirilir. "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunur. Bundan əlavə, 150-yə yaxın dövlət və ictimai təşkilata elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Bunun üçün İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, əlavə server avadanlıqları, irihəcmli məlumatların qəbulu və paylanması üçün şəbəkə avadanlıqları alınıb quraşdırılmışdır.

Muxtar respublikanın yaşayış məntəqələri tamamilə telefonlaşdırılmış, bir kanal vasitəsilə telefon, internet və televiziya xidmətlərindən istifadəyə imkan verən Yeni Nəsil Telekommunikasiya sistemlərinin tətbiqinə başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı barədə demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Muxtar respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 5 mərhələdən ibarət layihənin artıq 4 mərhələsi başa çatdırılıb. Ötən ilin noyabr ayında Culfa rayon ərazisində yeni nəsil telekommunikasiya sisteminin qurulması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasında müqavilə imzalanmış və avadanlıqlar muxtar respublikaya gətirilmişdir. Hazırda avadanlıqların montaj-quraşdırma işləri davam etdirilir.

Muxtar respublikada informasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər poçt sistemini də əhatə etmişdir. 164 poçt şöbə və bölməsi avtomatlaşdırılmış, yeni sistem üçün server qurulmuş, lazımi proqram təminatı ilə təchiz edilmişdir. Bu gün elektrik enerjisi, qaz və digər xidmət haqlarının ödənilməsi tamamilə poçt şöbə və bölmələri vasitəsilə həyata keçirilir. Bununla yanaşı, poçt şöbə və bölmələrində bankomat kartları ilə POS-terminallardan ödəniş üçün lazımi şərait yaradılmış və ümumilikdə, 174 POS-terminal quraşdırılmışdır. "Elektron hökumət" portalı üzərindən muxtar respublikamızda real vaxt rejimində poçt məntəqələrində kommunal xərclərin yığılması davam etdirilir. Həmçinin pensiya ödənişlərinin avtomatlaşdırılması məqsədilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin mütəxəssisləri tərəfindən hazırlanmış elektron bazalı proqram təminatı, bələdiyyə xidmət rüsumlarının toplanması da avtomatlaşdırılmış, şəhər, rayon və kənd bölmələrində məftilli internet abunəçiləri üçün balans-artırma və tullantı məhsullarının qəbulu üçün proqram təminatı hazırlanmış, cari il mart ayının 20-də istifadəyə verilmişdir.






Müasir texnologiyaların tətbiqi muxtar respublika ərazisində rəqəmsal radio-televiziya yayımının təşkilinə də əsaslı zəmin yaratmışdır. Xüsusilə informasiya cəmiyyətinin qurulmasında elektron medianın imkanlarından geniş istifadə olunur. Muxtar respublikanın kütləvi informasiya vasitələrinin internet saytlarının yaradılması, sosial şəbəkələrdən istifadənin aktuallaşdırılması informasiyanın operativ şəkildə ötürülməsində və yayılmasında yeni mərhələnin əsasını qoymuşdur. 2014-cü ilin dekabr ayından analoq televiziya yayımı dayandırılmış, 6 güclü və 44 azgüclü verici stansiya vasitəsilə muxtar respublika ərazisində rəqəmsal televiziya yayımına keçid təmin edilmişdir. Hazırda bütün yaşayış məntəqələrində 12 televiziya kanalının və 9 radio dalğasının rəqəmsal yayımı təmin edilmişdir. Bu gün Naxçıvan Dövlət Televiziyası və Radiosu internet üzərindən bütün dünyaya yayımlanır. Muxtar respublikada İP televiziyanın yayımı Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaratmışdır. Azərbaycan Respublikasında ilk dəfə teleradio kanallarının bir tezlik üzərindən yayımını təmin edən SFN texnologiyası Naxçıvan Muxtar Respublikasında tətbiq olunub.





Hər il muxtar respublika ərazisində yeni tikilən kənd mərkəzlərinə, təhsil müəssisələrinə, dövlət təşkilatlarına fiber-optik xətlər çəkilir və bu xətlər üzərində irihəcmli telekommunikasiya şəbəkələri qurulur. Hazırda muxtar respublikada fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1600 kilometrdən artıqdır. Bu da muxtar respublikada rabitə əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir. Son iki ildə Türkiyə istiqamətində əlavə fiber-optik kabel xətti çəkilmiş və muxtar respublikaya daxil olan internet kanalının həcmi iki dəfə artırılmışdır. Naxçıvan Muxtar Respublikasının beynəlxalq transavrasiya fiber-optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 98,6 faizində genişzolaqlı, 99,5 faizində isə mobil internet xidmətləri göstərilir. 2018-ci ilin oktyabr ayında yaranmasının ikinci ilini qeyd edən Naxtel mobil operatoru uğurlu fəaliyyətini davam etdirmiş, ötən il abunəçilərini daha 30 min artırmaqla, ümumi istifadəçi sayının 60 mindən çox olmasına nail olmuşdur. Bundan əlavə, şəbəkənin keyfiyyətinin yüksəldilməsi üçün əlavə tədbirlər görülmüş, Babək rayonunun Yuxarı Buzqov və Şərur rayonunun Şahbulaq kəndlərində Naxtel mobil rabitəsinin tutumu təmin edilmişdir. Bütün bunlar informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələridir.

Muxtar respublikada informasiya texnologiyalarının ayrı-ayrı sahələrdə də tətbiqinə diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada elektron təhsil infrastrukturunun inkişafı və təhsildə yeni texnologiyaların tətbiqi daim diqqət mərkəzində saxlanılır. Belə ki, son illər bu istiqamətdə işlər daha da genişləndirilmiş, təhsil müəssisələrində kompüter dəstləri və elektron lövhələr quraşdırılaraq internetə qoşulması təmin edilmişdir. 2018-ci il ərzində təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün 2014-cü ildə qurulan interaktiv təhsil sisteminə qoşulmuş muzeylərə daha ikisi əlavə edilmiş, istifadəyə verilən səkkiz təhsil müəssisəsinin fiber-optik əsaslı interaktiv təhsil sisteminə qoşulması təmin olunmuşdur. Hazırda muxtar respublika üzrə 200-dən artıq təhsil müəssisəsi və 17 muzey "İnteraktiv Tədris Sistemi"nə qoşulmuşdur.

*İnformasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. Odur ki, muxtar respublikada bundan sonra da informasiya texnologiyalarının inkişafı daim diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin aparatı və struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası aprel ayında da davam etdirilmiş, 9 təhlükə potensiallı obyektdə yoxlama-baxış keçirilərək profilaktik tədbirlər görülmüşdür.*

Aşkar edilmiş 28 halda texniki təhlükəsizlik qayda və normalarının pozulması aradan qaldırılmışdır. 4 müəssisədə 68 işçinin iştirakı ilə texniki təhlükəsizliyin təmin edilməsi məqsədilə maarifləndirmə işləri aparılmış, 8 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarət məqsədilə yoxlama keçirilmiş, 4 tibb müəssisəsi radioloji-gigiyenik pasportlarla təmin edilmişdir. Ötən ay 45 müəssisə və təşkilatda 1378 nəfərin iştirakı ilə maarifləndirici tədbir, eləcə də qrup məşğələləri keçirilmişdir.

Muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 169 obyektdə diqqətli, 215 obyektdə nəzəri, 41 obyektdə isə məqsədli yoxlamalar keçirilmiş, 3465 yaşayış evində yanğın-texniki müayinələr aparılmış, müşahidə olunan çatışmazlıqlar aradan qaldırılmışdır.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi təqdim olunmuş 36 obyektin işçi və layihə sənədlərinin ekspertizasını aparmış və rəylərini hazırlamışdır.

Ötən ay Naxçıvan şəhər məktəblilərinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Texniki Kollecinin bir qrup tələbəsinin Mülki müdafiə alayında şəxsi heyətlə görüşü təşkil edilmiş, gənclər hərbi hissənin imkanları və sosial-məişət şəraiti ilə tanış olmuşlar.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***



# Rəssam Həmzə Sadiqovun fərdi sərgisi açılıb

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqovun muxtar respublikanın 95 illiyinə həsr edilmiş 70 illik yubiley sərgisinin açılışı olub.*

Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək rəssamın özünəməxsus yaradıcılıq yolundan danışıb.

Bildirilib ki, Həmzə Sadiqovun yaradıcılığı tanınan və seviləndir. Rəssamın əsərləri fəlsəfi ideyalardan uzaq, asan qavranılan və tez başa düşüləndir. Həmzə Sadiqov əsərlərini hiperrealizm üslubuna yaxın işləyir. Rəssam Naxçıvanımızı digər ölkələrdə də öz əsərləri ilə tanıdır. O, əsasən, mənzərə və portret janrlarına üstünlük verir. Həmzə Sadiqov muxtar respublikamızda keçirilən tədbirlərin əksəriyyətində əsərləri ilə iştirak edən, Naxçıvanın qədimliyindən, müasirliyindən, quruculuğundan təsirlənərək yorulmaq bilmədən çalışan bir rəssamdır. O, dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq sərgilərdə iştirak edib. Rəssamın yaradıcılıq sahəsindəki xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Muxtar respublikamızda ilk dəfə təsviri sənət üzrə laureat adına, 2011-ci ildə “Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı” fəxri adına, 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülüb.



Qeyd olunub ki, Azərbaycan Rəssamlar İttifaqının, eləcə də Naxçıvan Rəssamlar Birliyinin üzvü Həmzə Sadiqov hazırda pedaqoji fəaliyyətlə də məşğul olur. O, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzindəki rəsm dərnəyində müəllim kimi çalışır.

Ülviyyə Həmzəyeva rəssamı 70 illik yubileyi münasibətilə təbrik edib, Naxçıvan Rəssamlar Birliyində keçirilən tədbir və sərgilərdə fəal iştirakına görə ona Rəssamlar Birliyinin kollektivi adından plaket təqdim edib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov tədbirdə çıxış edərək diqqətə çatdırıb ki, Sədərək uğrunda gedən döyüşlərdə fəal iştirak edən müharibə veteranı Həmzə Sadiqov işlədiyi dövrdə həmişə dövlətə, dövlətçiliyə sədaqətini göstərib, gənc nəslin yetişməsində, gənc kadrların təcrübə toplamasında öz bacarığını əsirgəməyib. Həmzə Sadiqovun xidməti fəaliyyəti geniş olub, müstəqilliyimizin ilk illərində, keşməkeşli bir dövrdə öz bacarığını cəsarətlə nümayiş etdirə bilib, Vətəninə, millətinə, dövlətinə layiqli xidmət edib. Daxili İşlər naziri rəssamı təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Mehmet Emin Kiraz, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Elbrus İsayev, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Gülbuta Babayeva, Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev çıxış edərək Həmzə Sadiqovu 70 illik yubileyi və Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr olunmuş fərdi sərgisinin keçirilməsi münasibətilə təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Rəssam Həmzə Sadiqov sərginin təşkil olunmasında göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Sonra sərgiyə baxış olub. Sərgidə rəssamın müxtəlif janrlarda işlədiyi 95 rəsm əsəri nümayiş olunub. “Ümummilli liderin davamçıları”, “Atatürkün portreti”, “Naxçıvan abidələri”, “Batabat”, “Haçadağ”, “Nuh Peyğəmbərin məqbərəsi”, “Qarabağlar türbəsi”, “Aza körpüsü”, “Əlincə qalası” kimi əsərlər sərgi iştirakçıları tərəfindən maraqla izlənilib. Bu əsərlərdəki milli ruh və milli kolorit rəssamın dərin yurd, Vətən sevgisini təcəssüm etdirir. Portret, mənzərə, natürmort, Naxçıvan etüdləri, kompozisiyalar rəssamın peşəkarlığından və zəngin yaradıcılıq dünyasından xəbər verir.

Qeyd edək ki, sərgi may ayının 29-dək davam edəcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvanda musiqi mədəniyyəti yüksək səviyyədədir

*Xəbər verdiyimiz kimi, norveçli məşhur xor şefi və müəllimi Per Oddvar Hildre və Azərbaycanın incəsənət xadimlərindən ibarət nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər. Nümayəndə heyəti Naxçıvan şəhərindəki təhsil və mədəniyyət müəssisələri ilə tanış olub, norveçli dirijor xor kollektivləri üçün ustad dərsi keçib. “Şərq qapısı” qəzeti üçün qonaqların təəssüratlarını öyrəndik.*

***Per Oddvar Hildre – norveçli musiqiçi, əfsanəvi “Skruk” xorunun dirijoru:*** – Bir çox illər əvvəl, 1997-ci ildə ilk dəfə ölkənizin paytaxtı Bakıda olarkən İlqar Muradov və Siyavuş Kərimi mənə Naxçıvana hökmən getməyi tövsiyə etdilər. Onlar mənə bu torpağın Azərbaycanın ən gözəl guşələrindən biri olduğunu və təmiz hava, təmiz su, ən əsası təmizürəkli insanları görmək üçün Naxçıvana səfər etməyi məsləhət bildilər. Mən belə bir imkanı yalnız bu il tapa bildim. Naxçıvana dəvət edildim və gördüyünüz kimi, artıq burdayam.



İlk olaraq havanın gözəl olması mənə çox xoş təsir bağışlayır. Hava limanından enərkən gördüyümüz uca dağlar, yaşıllıq və təmiz şəhər mənə çox gözəl təəssürat bağışladı. Sonra biz konservatoriyaya getdik və burada gözəl mahnı oxuyan gəncləri görmək ürəyimcə oldu.

Bilirəm ki, Azərbaycan yüksək musiqi mədəniyyətinə malikdir. Məsələn, Norveçdə Daş dövründə nəhəng daş baltalar olduğu zamanda Azərbaycanda dahi şairlər və musiqiçilər olub. Mənim üçün böyük şərəfdir ki, bu mədəniyyətlə tanış olum. Bilirəm ki, böyük siyasətçi Heydər Əliyev Azərbaycanda mədəniyyətin inkişafına xüsusi diqqət göstərib. O, musiqi, teatr, rəsm və rəqs sənətinin böyük hamisi olub, özü də bu sənət növləri ilə maraqlanıb.

Düşünürəm ki, dünyanın digər yerlərində yaşayanlar Azərbaycan mədəniyyətini öyrənməlidirlər. Bu, çox vacibdir. Naxçıvanda bizə göstərilən qonaqpərvərliyə görə bir daha minnətdaram. Burada özümü çox xoşbəxt və rahat hiss edirəm. Bir norveçli turist üçün bu, çox böyük hisslərdir.

***Siyavuş Kərimi – Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti:*** – Naxçıvanda yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait var. Mən çox sevinirəm ki, bu gün Azərbaycanın incəsənət xadimləri ilə birlikdə Naxçıvandayam.



Naxçıvana gəlişimizin məqsədi bu qədim diyarın gözəlliyini, onun mədəniyyətinin inkişafını, yüksəlişini yaxından görmək, gələcəkdə muxtar respublikada hər hansı bir beynəlxalq layihənin ərsəyə gəlməsini müzakirə etmək, qarşılıqlı əlaqələri inkişaf etdirmək nail olmaqdır. Naxçıvan musiqi sahəsində də gözəl sənətkarlar yetişdirən bir diyardır. Bu gün bir çox naxçıvanlı sənətkar Azərbaycan mədəniyyətinin inkişafına öz töhfələrini verir. Biz bir azərbaycanlı kimi bundan böyük qürur duyuruq.

Səfər çərçivəsində biz Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında olduq. Bir musiqiçi kimi oradakı xor kollektivinin ifası mənə çox gözəl təsir bağışladı. Həqiqətən də, Naxçıvanda uşaqların musiqi təhsili olduqca ürəkaçandır, mən o zəhmətkeş müəllimləri ürəkdən alqışlayıram ki, belə istedadlı uşaqları yetişdirib səhnəyə çıxarıblar.

***Nazim Kazımov – Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor:*** – Mən Naxçıvanda dünyaya göz açıb bu torpağın havası, suyu, çörəyi ilə böyümüşəm. İlk musiqi təhsilimi də məhz qədim diyarda fəaliyyət göstərən 1 nömrəli musiqi məktəbində almışam. Müəllimlərim Sahib və Vahid Axundovlardan musiqinin ilkin sirlərini öyrənmişəm. O zamanlar Naxçıvanda ali musiqi təhsili almaq üçün şərait olmadığından Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumuna üz tutdum və təhsilimi orada davam etdirdim. İşimlə əlaqədar Bakıda yaşasam da, ürəyim daim Naxçıvanla döyünüb.



Ötən ilin yaz aylarında qədim diyara ekskursiya edən zaman buranın inanılmaz dərəcədə gözəlləşdiyini, müasir şəraitə malik olduğunu gördüm. Bu il də musiqiçi həmkarlarımla birlikdə Naxçıvana gəlməyi qərara aldıq. Dostumuz, 22 ildir, Azərbaycana gəlib-gedən, bizimlə əlaqəli çalışan norveçli məşhur xor şefi və müəllimi Per Oddvar Hildre eşidəndə ki, Naxçıvana gələcəyik, bizimlə bərabər o da oğuz yurduna səfər etmək istədiyini, təbiətini, tarixi məkanlarını yaxından görmək arzusunda olduğunu bildirdi. Və beləcə, biz Naxçıvana üz tutduq, məqsədimiz isə buranın musiqisi, mədəniyyəti ilə yaxından tanış olmaq, görməli yerlərinə səyahət etmək idi.

Səfər zamanı Naxçıvanda musiqi mədəniyyətinin, təhsilin necə böyük sürətlə inkişaf etdiyinin şahidi olduq. Musiqi sahəsinə dərindən bələd olan biri kimi deməliyəm ki, burada 27 musiqi məktəbinin, musiqi kollecinin və konservatoriyanın, filarmoniyaların, ansamblların fəaliyyət göstərməsi, hər il yüzlərlə tələbənin musiqi təhsilini başa vuraraq musiqiçi kadr kimi yetişməsi böyük bir zəhmətin nəticəsidir. Rəhbəri olduğum kollecdə də çalışan naxçıvanlılar var. Mən hər zaman onlarda incəsənətə, musiqiyə olan marağı, bu sahələr üzrə qeyri-adi istedadı gördükcə üreyim dağa dönür.

Bu yurdun övladı kimi bütün bu gözəlliklər məni inanılmaz dərəcədə sevindirir. Səfər müddətində Naxçıvanın gəzməli yerlərini, tarixi abidələrini də doyunca gəzib, norveçli dostumuza da gözəl, xoş anlar bəxş etmək niyyətindəyik. İnanıram ki, gələcəkdə bu diyara tez-tez üz tutacağıq.

***Rauf Babayev – “Qaya” ansamblının üzvü:*** – Naxçıvan mənə çox doğma və əzizdir. Mənim anam burada dünyaya göz açıb, nənəm burada yaşayıb, uşaqlıq çağlarım Naxçıvanda keçib. Həqiqətən də, doğru deyirlər ki, uşaqlıq illərində yaşananlar hər zaman insanın yaddaşında qalır, o illərdə olanları unutmaq olmur. Yaxşı yadımdadır, həmin illərdə nənəm bizə təndir çörəyindən pendir dürməyi tutar, dadlı pomidorla yeyərdik. Nənəmgil Bakıya gələn zaman mənə mütləq həmin təndir çörəklərindən, tamlı Naxçıvan pendirindən gətirərdilər, indi burada olarkən həmin nostalji duyğuları yenidən yaşadım.



Onu da deyim ki, ötən əsrin 70-80-ci illərində bir dəfə “Qaya” ansamblının üzvü kimi Naxçıvanda olmuşam. Sonralar mən 9 uşaqdan ibarət “Bəri bax” ansamblını yaratdım, müstəqillik illərində həmin kollektivlə dünyanın bir sıra ölkələrində konsertlər verdik. Həmin kollektivin repertuarına görkəmli bəstəkar Məmməd Məmmədovun bəstələdiyi Naxçıvanla bağlı gözəl bir mahnı da daxil etmişdik. Səhv etmirəmsə, 2000-ci ilin əvvəllərində qədim diyara üz tutan zaman da həmin ansambl o mahnını ifa etmişdi.

Onu da xüsusilə qeyd edim ki, budəfəki gəlişimdə diqqətimi çəkən ən mühüm cəhətlərdən biri də ayrı-ayrı təşkilatlarla yanaşı, insanların da təmizliyə, səliqə-sahmana xüsusi fikir verməlari oldu. Bildiyimiz ki, yaradıcı insanlar, sənətə bağlı olanlar üçün sakit yerdə öz düşüncələrinlə baş-başa qalmaq ən gözəl duyğudur. Həzin küləyin təsiri ilə yarpaqların asta templə əsməsi, quşların cəh-cəh səsləri, suyun şırıltısı insana sanki vücudunu titrədən lirik bir musiqi təsiri bağışlayır. Sevinirəm ki, mən Naxçıvanda o lirikliyi, rahatlığı, ruhumun dincəldiyini hiss edə bildim. Səfər çərçivəsində Naxçıvanın gəzməli yerlərində də olacağıq, inanıram ki, bundan sonra teztez bu diyara gələ biləcəyəm.

✍ **Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

# *“Heydərbabaya salam”* poemasının müzakirəsi olub



***AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondu bölmənin Mərkəzi Elmi Kitabxanası ilə birgə oxunması zəruri olan kitablar siyahısına daxil olan Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poemasının müzakirəsini keçirib.***

Tədbirdə Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Məhəmmədhüseyn Şəhriyarın yaradıcılıq irsindən, ustad şairin ölməz əsərlərinin Azərbaycan və Yaxın Şərq ədəbiyyatındakı yeri və mövqeyindən bəhs edib. Bildirib ki, əsərlərini klassik üslubda qələmə alan Şəhriyar hələ sağlığında klassiklər səviyyəsinə ucalıb. Şairin müxtəlif mövzulu əsərlərinin bir çoxunda Vətənin şanlı tarixi, millilik, milli dəyərlər üstünlük təşkil edir.

Vurğulanıb ki, ustad şairin diqqətçəkən əsərlərindən Azərbaycan ədəbiyyatının ən poetik nümunəsi olan “Heydərbabaya salam” poemasıdır. Əsərdə xalqın tarixi taleyi, milli-mənəvi dəyərlər, adət-ənənələr, ayin və mərasimlər, təbiət hadisələri böyük ustalıqla, poetik dillə tərənnüm edilib.

Diqqətə çatdırılıb ki, “Heydərbabaya salam” poeması əhəmiyyətinə və aktuallığına görə bu gün də Azərbaycan ədəbiyyatının dəyərli nümunəsi hesab edilir. Elə bu səbəbdəndir ki, Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poeması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı oxunması zəruri olan kitablar haqqındakı sərəncamda xüsusi yer tutur.

Daha sonra bölmənin Mərkəzi Elmi Kitabxanasının direktoru Şahin Əliyeva və Əlyazmalar Fondunun kiçik elmi işçisi Kubra Vəliyeva mövzu ətrafında çıxış ediblər. Qeyd olunub ki, Məhəmmədhüseyn Şəhriyar dərin məzmunlu əsərlərində başəri-humanist qənaətlərini, ictimai varlıq, real və ideal aləm, insan taleyi, şəxsiyyət və zaman kimi fəlsəfi mahiyyət daşıyan problemləri təhlil edib, bədii sözün imkanları çərçivəsində məharətlə oxucuya çatdırıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

Yurdumuzun nemətləri

# Min bir dərdin dərmanı – mərəçüyüd

*Yaz fəslində doğma diyarımızdan başqa bir yerə səyahət edən elə bir şəxs tapılmaz ki, uzaqda yaşayan qohumlarına Naxçıvanın bərəkətli torpaqlarında bitən yaz pencərlərindən pay aparmasın. Əslində, Naxçıvanda olan pencərlərin eynilərindən Azərbaycanın başqa rayonlarında da bitir. Amma digər nemətləri kimi bu torpağın pencərinin də dadını heç yerdə almaq olmur. Ona görə də uzaq rayonlarda, başqa yerlərdə yaşayanlara ən dəyərli sovqat elə qədim torpağın min dərdin dərmanı sayılan bitkiləri olur. Yazda təzəsi, qışda isə qurudulmuşu.*

Yaxın günlərdə Bakı şəhərindən gələn qonağımın da süfrədə yaz pencərləri ilə bişirdiyim yeməkləri, qışdan qalan qovurma ilə qızartdığım mərəçüyüdü görəndə ilk sözü bunlar oldu: "Gör neçə ildir, yurdumdan ayrılmışam, buranın torpağının ətrindən, suyundan, dağlarında, çöllərində bitən ləvin-ləvin pencərlərinin dadından ötrü darıxmışam. Bu, lap yerinə düşdü, mərəçüyüd min bir dərdin dərmanıdır". Qonağımın mərəçüyüd haqqında dedikləri məni bu bitki ilə yaxından maraqlanmağa sövq etdi.



Aralıq dənizi hövzəsindən yayılan bu bitkidən Şimali Avropa, Asiyada da istifadə olunur. Qədim Misirdə mərəçüyüd "hökmdarların məhsulu" adlandırılıb. Bu möcüzəvi bitkinin saysız-hesabsız faydaları təbiblərin həmişə diqqət mərkəzində olub. Onun toxumları üyüdülüb toz halına salınar və qəhvə əvəzi istifadə edilərdi. Yaşıl rəngli mərəçüyüd vaxtından əvvəl qocalmanın qarşısını alır. Məhz bu səbəbdən o, Hollivud ulduzlarının sevimli qidası hesab olunur. Hazırda müxtəlif ölkələrdə bu bitki geniş surətdə əkilibbecərilir. Keçmiş ittifaqda 30, Qafqazda 12, o cümlədən Azərbaycanda 9 növünə rast gəlinir. Ölkəmizin bir çox bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının ərazisində də geniş yayılıb. Muxtar respublikanın bütün rayonlarında bitir.

Müxtəlif kitablardan, internet saytlarından öyrəndiklərimlə qane olmayıb yaz günəşinin ətrafa şölə saçdığı günlərin birində yolumu Şərur rayonunun Ərəbyengicə kəndinə salıb, burada yurdumun səmimi, işgüzar sakinləri ilə birlikdə mərəçüyüd toplayır, onlardan bir neçəsi ilə həmsöhbət oluram. Kənd sakini Nazilə xalanın dedikləri:

– Mərəçüyüd Arazboyu ərazilərdə, çəpər diblərində, açıq sahələrdə və qaratikan kollarının ətrafında, kövşənliklərdə, əkin sahələrinin kənarlarında, meyvə və üzüm bağlarında, örüş sahələrində, bəzən də həyətyanı sahələrdə seyrək halda bitir. Mərəçüyüd yaşıl, açıq-bənövşəyi və ya ağ rəngdə olur. Yaşıl mərəçüyüd günəşli ərazilərdə, ağ və bənövşəyi rənglisi isə kölgəliklərdə bitir.

Bitkinin yığılma qaydasından danışan xala onu da bildirir ki, mərəçüyüd iti bıçaqla kök boğazından çəpinə kəsməklə, çox vaxt isə əllə qoparılıb götürülür. Bu işi elə görmək lazımdır ki, bitki kökündən çıxmasın. Mərəçüyüd daha çox rütubətli yerlərdə bitdiyi üçün onu toplayanda ehtiyatla kəsirik ki, kökü torpaqda qalsın. Gələn ildə də bu nemətdən istifadə edə bilək.

Mərəçüyüdü toplayıb qurtardıqdan sonra Nazilə xalanın evinə qonaq olur, bu bitkinin bişirilməsinə baxırıq. Çöldən topladığımız bitkini təmizləyir, söhbət edirik. O deyir:

– Mərəçüyüdü bişirib soyuq və ya isti halda yeyirlər. Əvvəlcə onu yaxşıca yuyur, sonra kiçik hissələrə bölüb qaynar suda 5 dəqiqə saxladıqdan sonra cəviz və fındıq ləpəsi ilə birlikdə qızardırıq. Mərəçüyüdün körpə zoğları yumurta ilə bişirilir. Bunun üçün mərəçüyüd təmizlənir, duzlu suda 1-2 dəqiqə qaynadılır. Qaynadılmış mərəçüyüd yüngülcə sıxılır və yağda qızardılaraq üzərinə yumurta vurulur, – deyən müsahibim onu da bildirir ki, səhər obaşdan mərəçüyüd yığmağa getməzdən əvvəl kətə bişirmək üçün xəmir də yoğurub. O, kətənin bişirilmə qaydasından da danışır:

– Əvvəlcədən mərəçüyüd qaynadılıb az yağda soğanla birlikdə qızardılır, soyumağa qoyulur. Adi kətə xəmiri yoğurulur. Xəmirə su əvəzinə süd vurulsa, daha yaxşı olur. Sonra kündə tutub onu yayırıq. Hazırladığımız içliyi içərisinə qoyub zərf formasında bükürük. Xala onu da deyir ki, mərəçüyüd kətəsinin xəmirini bir az qalın açmaq lazımdır.

Müsahibim mərəçüyüdün iri, yoğun zoğlarını seçir, nazik şişlərə taxaraq ocaq başında kətə hazırlayan gəlininə verir və deyir ki, bunları da ocağın közündə bişirsin. Sonra pomidor kababı ilə qatıb, üzərinə göyərti əlavə edərək süfrəyə versin.

Mərəçüyüd salatı hazırlayan qonşu Xədicə xanım da söhbətimizə qoşulur:

– 500 qram mərəçüyüdü duzlu suda azca qaynatdıqdan sonra süzüb soyumağa qoyuruq. Sonra bir qaynanmış yumurtanın sarısını doğrayıb, üzərinə bir xörək qaşığı qarğıdalı yağı, xırda doğranmış cəfəri, zövqə uyğun olaraq alma sirkəsi əlavə edirik. Hazırlanmış mərəçüyüdlə onları qarışdırırıq.

Kənd sakini, tibb bacısı Aygün söhbətimizə qoşulur, bu bitkinin zəngin tərkibindən və orqanizmə faydalı təsirindən danışır:

– Bu bitki təbii afrodiziakdır. Mərəçüyüd ürək-damar sistemi üçün olduqca xeyirlidir. Tərkibində çoxlu miqdarda A və C vitaminləri, dəmir, kalium, sink kimi dəyərli mikroelementlər və həmçinin kifayət qədər sellüloza olan bu bitki bir çox xəstəliklərin qarşısını alır. Asan həzm olunan, az kalorili tərəvəzdir. Yorğunluq və ürək xəstəlikləri üçün faydalıdır. Bu bitki böyrəklərdəki bakterial infeksiya və iltihabların müalicəsində istifadə olunan təbii mayeqovucudur. Mərəçüyüd bu xüsusiyyətinə görə, həmçinin orqanizmdə maye toplanması və şişlərin əmələ gəlməsi kimi fəsadlarla müşayiət olunan başqa xəstəliklərin müalicəsində də istifadə edilə bilər. Tərkibində asparagin turşusu olduğundan o, qan təzyiqini aşağı salır. Buna görə də hipertoniya xəstəliyindən əziyyət çəkənlərin qida rasionlarına mərəçüyüd bitkisi daxil etmələri müsbət nəticə verər.

Müsahibim onu da bildirir ki, tərkibi həm də fol turşusu ilə zəngin olan mərəçüyüd hamilə qadınlar üçün dəyərli bir qida məhsuludur. Mərəçüyüd qaraciyərin fəaliyyətini yaxşılaşdırır, ondan müntəzəm istifadə edildikdə qanı da təmizləyir. Vərəm xəstəliyinə düçar olanlar yemək rasionunda mərəçüyüd istifadə etsələr, faydasını görərlər. Bu bitki həm də xərçəng xəstəliklərinin profilaktikası üçün ən yaxşı vasitələrdəndir.

Orqanizmdəki iltihabi proseslərə qarşı da təsirlidir, – deyən Aygün xanım onu da diqqətimizə çatdırır ki, bütün faydalı qida məhsulları kimi, bu möcüzəvi bitkidən də qədərində istifadə etmək lazımdır. Aygün xanımın bu sözlərinə evin qonağı, uzun illərdir ki, xalq təbabəti ilə məşğul olan 95 yaşlı Dilbər nənə də qoşulur: – Deyirlər ki, "min dərd verən Allah min bir də dərman verir". Bax, elə torpağımızın hər qarışında bitən bu bitkilər də min bir dərdin dərmanıdır. Mənim anam da xalq təbabəti ilə məşğul idi. Bir çox xəstəlikləri müalicə edərdi. Elə ki yaz gəldi, kövşənlərə, yayda isə Batabat yaylağına gedər, orada bitən belə bitkilərdən toplayardı. Elə mən də bitkilərlə müalicəni ondan öyrənmişəm.

Mərəçüyüd də bir çox dərdin dərmanıdır, – deyən nənə bizə bir neçə məsləhət verir. Onları oxucularımızla paylaşırıq: Bitkinin köklərindən 3, yarpağından 1, əvəlik kökündən 1, həmərsin və bağayarpağının hərəsindən 2, qatırquyruğundan 5 çay qaşığı götürüb qarışdırırlar. Qarışıqdan 1 xörək qaşığı bir stəkan qaynar suya tökür və bir saat dəmləyirlər. Sonra onu süzüb təmiz şüşə qaba tökürlər. Yeməkdən bir az əvvəl qarışıqdan bir xörək qaşığı qəbul edirlər. Bu, böyrək xəstəliklərinin müalicəsində işlədilir. Mərəçüyüdün kökündən götürərək yaxşı-yaxşı yuyub, təmizləyib 2 stəkan qaynar suda dəmləyin. Səhər-axşam acqarına 2 xörək qaşığı qəbul edin. Bu, qan təzyiqinizin normal vəziyyətə gətirilməsinə çox yaxşı təsir göstərir. Qarışıqdan şəkər xəstələrinin istifadə etməsi də yaxşı nəticə verir. Bu, ürəkdamar xəstəliklərinin müalicəsində də ən yaxşı üsuldur. Mərəçüyüdün köklərini qurudub qış fəslində də istifadə etmək olar. Bütün bitkilər kimi, bu bitkini də qədərindən artıq istifadə etmək olmaz. Ağız boşluğunda yaranan problemlərdən xilas olmaq üçün mərəçüyüddən hazırlanmış cövhərdən istifadə etmək yetərlidir, – deyən nənə onu da diqqətimizə çatdırır ki, bunun üçün bitkinin kökündən 100 qram götürülür, üzərinə bir stəkan isti su və 2 stəkan alma sirkəsi əlavə olunur, 10 dəqiqə qaynadılır. Soyuduqdan sonra hər gün bir neçə dəfə qarqara edilir.

*Heç bir qulluq tələb etmədən özözünə torpaqdan boyverən şəfalı bitkilərdən biri – mərəçüyüd haqqında bu qədər məlumat aldıqdan sonra bildim ki, niyə doğma diyardan uzaqda yaşayanlar, böyüklərimiz bu nemətləri əzizləyib üstün tuturlar.*

**Ramiyyə ƏKBƏROVA**

## Beynəlxalq konfrans keçirilib




14-15 may tarixlərdə Fransanın Lion şəhərində Araz vadisinin qədim mədəniyyətlərinə həsr olunmuş "Araz çayı son preistoriya dövründə (körpü, yoxsa sərhəd)" başlıqlı beynəlxalq konfrans keçirilib.

Fransa Milli Araşdırmalar Mərkəzi və Təbriz İslam İncəsənət Universitetinin təşkilatçılığı ilə keçirilən konfransda AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, dosent Katerine Maro, arxeoloq Savaş Sarıaltun, Nikolas Gailhard və Marie Orange tərəfindən Naxçıvanın qədim mədəniyyətləri ilə bağlı altı məruzə edilib.

Məruzələrdə Naxçıvantəpədəki arxeoloji qazıntılar, Sirabçay vadisinin abidələri, Duzdağ, obsidianların tədqiqi ilə bağlı məlumat verilib.

Konfransdakı məruzələrin tezisləri kitab şəklində nəşr olunub.

## Ağbulağın yaşıllıq sahələri artırılır

Şahbuz Rayon İcra Hakimiyyəti ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi ərazisindəki dağ yamaclarında 15 hektara yaxın sahədə toxumla bərpa işləri aparılıb.



Əkində Ağbulaq kəndinin təbiətinə xas olan həmərsin, badamça, yemişan və yabanı alça toxumları əkilib.

Rayonun idarə, müəssisə, təşkilatlarının və Şahbuz Dövlət Təbiət Qoruğunun 500-ə yaxın əməkdaşının iştirak etdiyi əkin işlərinə kənd sakinləri də qoşulub. Əkin zamanı sahələrə 500 kiloqrama yaxın toxum səpilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda futbol bayramı

*Muxtar respublikamızda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş turnirlər keçirilir. Beynəlxalq, ölkədaxili və yerli turnirlərdə yüzlərlə gənc mübarizə aparır.*



Bir çox turnirlərlə yanaşı, ölkənin futbol üzrə bir nömrəli turniri – Azərbaycan Kubokunun final görüşünə də Naxçıvan ev sahibliyi edəcək. Keçiriləcək həlledici qarşılaşmada "Qəbələ" və "Sumqayıt" komandaları üz-üzə gələcək. Oyun may ayının 19-u, saat $16^{30}$-da başlayacaq. Görüşdən öncə tədbirin bədii hissəsi təşkil olunacaq, burada Azərbaycanın tanınmış müğənnilərinin ifasında musiqi nömrələri səsləndiriləcək.

Muxtar respublikamızda futbol bayramı bununla başa çatmır. Ənənəvi olaraq keçirilən futbol üzrə "Heydər Əliyev kuboku" turniri də dördüncü dəfə təşkil olunacaq. "Şüvəlan", MOİK, "Araz-Naxçıvan" və Türkiyənin "Ağrıspor" komandalarının mübarizə aparacağı turnir dairəvi sistem üzrə keçiriləcək. Oyunlara may ayının 20-də start veriləcək. İlk oyun günündə saat $11^{00}$-da "Araz-Naxçıvan" MOİK-lə, $17^{30}$-da "Şüvəlan" "Ağrıspor"la qarşılaşacaq. Növbəti gündə oyunların başlama saatı eyni vaxtda olacaq. May ayının 22-də istirahət edəcək komandalar meydana ayın 23-də çıxacaqlar. Eyni zamanda həmin gün saat $17^{00}$-da turnirin bağlanış mərasimi keçiriləcək.

## Şahmat birinciliyinə start verilib



Naxçıvan Şəhər Təhsil Şöbəsi, şəhər Gənclər və İdman İdarəsi və Uşaq-Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə keçirilən birincilikdə 17 tam orta məktəbin hər birindən 3 qız olmaqla, ümumilikdə, 51 şagird iştirak edir.

Naxçıvan Şahmat Mərkəzində "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin V-VI sinif qız şagirdləri arasında şahmat üzrə şəxsi birinciliyə start verilib.

İsveçrə sistemi ilə 5 turdan ibarət olacaq birincilik 2 gün davam edəcəkdir. Final oyunları bu gün keçiriləcəkdir.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 341